**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İSA MUĞANNANIN YARADICILIĞINDA AVTOBİOQRAFİZM

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Ülvi Aydın oğlu Mikayılov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Vaqif Soltan oğlu Verdiyev** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Yədulla Bəbir oğlu Ağazadə** |
| | filologiya elmləri doktoru, professor<br>**Leyla Məcid qızı İmaməliyeva** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Natavan Seyid qızı Mustafayeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ______________ | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Dissertasiya şurasının elmi katibi: ______________ | filologiya üzrə fəlsəfə doktoru<br>**İlhamə Mürsəl qızı Gültekin** |
| Elmi seminarın sədri: ______________ | filologiya elmləri doktoru, professor<br>**Cəlil Qərib oğlu Nağıyev** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Çoxsaylı insan taleyini əks etdirən, müəyyən dövrlərin təsvirini verən bədii əsərlər insanların düşüncəsinin, dünyagörüşünün formalaşmasında əhəmiyyətli rol oynayır. Bədii əsərlərdə yaradılan obrazlar müəllif təxəyyülü ilə gerçəkliyin kəsişmə və çarpazlaşmasından doğur. Bəzi hallarda yazıçılar şəxsən yaşadıqları və ya tanıdığı insanların həyatlarından bildikləri hadisələri qələmə alırlar. Bu cür obraz yaratmaq ədəbiyyatşünaslıqda avtobioqrafizm termini ilə ifadə olunur.

Bədii ədəbiyyatda avtobioqrafizm yaratmaq ənənəsi qədim dövrlərə (ədəbiyyat dövrləşməsi baxımından) gedib çıxsa da, dünya ədəbiyyatşünaslığında avtobioqrafik əsərlərin öyrənilməsinə XIX əsrdə fransız tənqidçisi və yazıçısı Şarl Sent-Böv tərəfindən başlanılmış, XX əsrin II yarısından etibarən tədqiqatlar ənənə halını almışdır. Azərbaycan ədəbiyyatşünaslığında isə avtobioqrafiya janrı, ona yaxın olan avtobioqrafik əsər, sənədli bioqrafiya, gündəlik və memuarların tədqiqi XXI əsrin əvvəllərinə təsadüf edir. Avtobioqrafizm və avtobioqrafiyalarla bağlı nəzəri fikirdə müxtəlif mülahizələr vardır.

Avtobioqrafik əsər araşdırmaya cəlb olunarkən ilk növbədə müəllifin həyatı, şəxsiyyəti, ona olan münasibət, ədəbiyyatşünaslığın, ictimai fikrin ədibin özü və yaradıcılığı haqqında qənaətləri öyrənilir. Müəllifin şəxsiyyəti və yaradıcılığı psixoloji, sosioloji, kulturoloji və estetik cəhətdən dəyərləndirilir.

Avtobioqrafik obraz yaradan qələm sahibi ilk növbədə öz şəxsiyyətini, xarakterini, davranışını və psixologiyasını yaxşı dərk etməli, özünü müşahidə qabiliyyəti yüksək olmalıdır. Avtobioqrafik əsər, eyni zamanda, müəyyən bir dövrün mənzərəsini əks etdirir. Bu əsərlərin avtobioqrafiyalardan əsas fərqi ondadır ki, birincidə şair və ya yazıçı özünün və tanıdığı şəxslərin həyatından müəyyən epizodları təxəyyül süzgəcindən keçirərək qələmə alır.

Azərbaycan ədəbiyyatında kifayət qədər avtobioqrafik əsərlər qələmə alınmışdır. XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan İsa Muğannanın yaradıcılığı bu baxımdan səciyyəvidir. İsa Muğannanı Azərbaycan ədəbiyyatında avtobioqrafik

əsərlər müəllifi kimi də xarakterizə etmək olar. Bunu ədibin Mehdi Hüseynlə dialoqunda söylədikləri də təsdiq edir: *"– Səni tənbeh eliyəcəm, - dedi, - Oçerki niyə atandan yazmısan?*

*Çox düşünmədən dedim:*

*- Çünki atamı yaxşı tanıyıram."*[1]

Altımış ildən çox yaradıcılıq təcrübəsi olan nasirin ilk əsəri "Anadil ötən yerdə" hekayəsindən başlayaraq ömrünün sonuna qədər yazdığı əsərlərdə taleyindən irəli gələn avtobioqrafik məqamlar çoxdur. Ədib ilk hekayəsi ilə başladığı avtobioqrafizm yaratma ənənəsini sonrakı əsərlərində də ("Saz", "Tütək səsi", "Quru budaq", "Kollu koxa", "Faciə", "Ömür karvanı" və s.) davam etdirmişdir. Bu qələm təcrübələrinin hər birində müxtəlif situasiyalarda maraqlı avtobioqrafik surətlər yaradılmışdır. Ədibin povest və romanlarında da çoxsaylı avtobioqrafik obrazlar vardır. Bu baxımdan "İlan dərəsi", "Qırx kisə qızıl", "Məhşər", "İdeal", "Qəbiristan", "İsaHəq, MusaHəq", "Cəhənnəm" əsərlərini xüsusi qeyd etmək olar.

İsa Muğannanın avtobioqrafik obraz yaratmaqda başlıca məqsədi görüb yaşadıqlarını, eşitdiklərini bədii ədəbiyyata gətirməklə dövrünün çatışmazlıqlarını nəzərə çatdırmaq idi. Bu, yazıçıya asan başa gəlmirdi; yaradıcılığının sovet dövrünə təsadüf edən dönəmində təhdidlərə və təqiblərə məruz qalırdı. Ədib avtobioqrafik örnəklər vasitəsi ilə milli-mənəvi dəyərlərimizi yaşatmağa, təbliğ etməyə, avtobioqrafik surətlərlə sətiraltı mənaları oxucularına çatdırmağa çalışırdı.

Mövzunun aktuallığını şərtləndirən başlıca məsələlərdən biri avtobioqrafik əsərlərdə milli kimlik, kökə bağlılıq, xalqın adət-ənənəsinin ehtiva olunmasıdır. Bu baxımdan İsa Muğanna yaradıcılığını "İdeal"a qədərki və "İdeal"la başlanan iki mərhələyə bölmək olar. Ədibin "İdeal"a qədərki əsərləri xəlqi mahiyyət daşıyır, daha çox yazıçının yaşantılarını, həmvətənlərinin taleyini, müharibənin gətirdiyi çətinlikləri əks etdirir. "İdeal" və sonrakı əsərlərində xəlqiliklə bərabər, bəşəri ideyalar da yer alır. Bu baxımdan, yazıçının "Məhşər" tarixi romanı xəlqiliklə bəşəriliyin vəhdətidir. Bu əsər İsa Hüseynov imzasının sonuncu qələm təcrübəsi

[1] Muğanna, İ.M. Həyatımdan səhifələr (İsa Muğanna xatirələrdə) / İ.Muğanna. – Bakı: Xan, – 2018. – s. 41.

olsa da, ədibin yaradıcılığında yeni mərhələnin başlanğıcıdır. “İdeal”la başlanan İsa Muğanna yaradıcılığında OdƏr dili və SafAğ elmi ilə bağlı məsələlər diqqəti cəlb edir.

Mövzunu aktuallaşdıran məsələlərdən biri də İsa Muğanna yaradıcılığının bugünədək lazımınca tədqiq olunmamasıdır. 80-ci illərə qədər ədibin əsərləri haqqında elmi məqalə və publisistik yazılarda müəyyən fikirlər söylənilsə də, bütövlükdə yaradıcılığı araşdırmaya cəlb olunmamışdır. “İdeal” romanı yazıldıqdan sonra ədəbi tənqidin yazıçının yaradıcılığına münasibəti tamamilə dəyişmiş, böyük əks-səda doğuran əsər haqqında müxtəlif yazılar dərc olunmuşdur. Azərbaycan müstəqillik qazandıqdan sonra İsa Muğanna yaradıcılığı ilə bağlı tədqiqatlar genişlənmiş, haqqında dissertasiya işləri, monoqrafiyalar yazılmışdır. Akademik Tofiq Hacıyev[2], akademik İsa Həbibbəyli[3], akademik Nizami Cəfərov[4], professorlar Tofiq Hüseynoğlu[5], Akif Hüseynov[6], Tahirə Məmməd[7], Təyyar Salamoğlu[8] yazıçının irsini müxtəlif istiqamətlərdə araşdırmaya cəlb etmişlər. İsa Hüseynovun yaradıcılığı haqqında Sevinc Hüseynovanın “İsa Muğannanın sənət möcüsəsi”[9], Şəmil Sadiqin “İsa Muğanna yaradıcılığı “İdeal” işığında”[10], İlhamə Muxtarın “İsa

---

[2] Hacıyev, T.İ. Sözün də su kimi lətafəti var // Ədəbiyyat və incəsənət qəzeti. – 1998, 17 iyun. – s. 3.

[3] Həbibbəyli, İ.Ə. İsa Hüseynovdan İsa Muğannaya: Axırıncı əlyazma və bütöv dünya / Ölümdən sonrakı həyat // Bakı: Hədəf nəşrləri, – 2014. – s. 3-7.

[4] Cəfərov, N.Q. Ədəbiyyatın müstəqilliyindən müstəqilliyin ədəbiyyatına / N. Cəfərov. – Bakı: Elm və təhsil, – 2014. – 348 s.

[5] Hüseynoğlu, T. Zamanı qabaqlayan sənətkar // Yazıçı xüsusi buraxılışı. – 1998, 24 yanvar. – s. 6.

[6] Hüseynov, A.M. Sənət meyarı / A.Hüseynov. – Bakı: Yazıçı, – 1986. – 312 s.

[7] Məmməd, T.Q. Ədəbiyyat müasir elmi yanaşmalar kontekstində (seçilmiş məqalələr) / T.Məmməd. – Bakı: Xan, – 2016. – 410 s.

[8] Salamoğlu, T. Azərbaycan ədəbiyyatı: Mübahisələr, həqiqətlər / T.Salamoğlu. – Bakı: Orxan, – 2016. – 320 s.

[9] Hüseynova, S.İ. İsa Hüseynovun povestləri: / Filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2000. – 136 s.

[10] Sadiq, Ş.K. İsa Muğanna yaradıcılığı, İdeal işığında / Ş.Sadiq. – Bakı: Hədəf nəşrləri. – 2017. – 320 s.

Hüseynovun (Muğanna) nəsrində milli koloritin inikası”[11] monoqrafiyaları çap olunmuşdur. İsa Muğanna yaradıcılığı haqqında professor Rüstəm Kamalın[12], filologiya elmləri doktoru Elnarə Akimovanın[13], filologiya elmləri doktoru İradə Musayevanın[14] araşdırmaları da diqqət çəkir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan İsa Muğannanın bədii nəsridir. Araşdırmanın predmetini isə yazıçının yaradıcılığında avtobioqrafizmlərin öyrənilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində müəyyən edilmiş məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin icrası nəzərdə tutulmuşdur:

– Avtobioqrafiya janrı ilə bağlı dünya və Azərbaycan ədəbiyyatşünaslığındakı fikirlərə nəzər salmaq;

– Avtobioqrafizmləri avtobioqrafiya, sənədli bioqrafiya, memuar və gündəliklərdən fərqləndirmək;

– Azərbaycan ədəbiyyatının müxtəlif dövrlərində yaradılmış avtobioqrafizmləri fərqli yönlərdən təhlilə cəlb etmək;

– İsa Muğanna şəxsiyyəti və yaradıcılığı haqqında ədəbiyyatşünaslıqda mövcud mübahisəli məqamlara aydınlıq gətirmək;

– Yazıçının bədii nəsrinin sosial və fəlsəfi aspektlərini bəhs olunan problem fonunda tədqiqata cəlb etmək;

– Müəllifin avtobioqrafik obraz yaratma səbəbləri və yaradılmış avtobioqrafizmlərin Azərbaycan ədəbiyyatşünaslığı üçün əhəmiyyətini müəyyənləşdirmək;

– Yazıçının hekayə və povestlərində avtobioqrafik surətləri gerçəklik və yazıçı təxəyyülü kontekstində təhlil etmək;

---

[11] Muxtar, İ. İsa Hüseynovun (Muğanna) nəsrində milli koloritin inikası / İ.Muxtar. – Bakı: Elm və təhsil, – 2018. – 148 s.

[12] Kamal, R. İsaya inanmaq // Ədəbiyyat qəzeti. – 2020, 14 iyun. – s. 23.

[13] Akimova, E.S. İnsan – bədii həssaslığın hədəfində // Kaspi qəzeti. – 2017, 11–13 fevral. – s. 24.

[14] Musayeva, İ.Ə. XXI əsrdən baxış: Ədib tənqid və bədii söz / İ.Musayeva. – Bakı: Elm və təhsil, – 2017. – 724 s.

– İsa Muğannanın “Məhşər”, “İdeal”, “Qəbiristan”, “İsaHəq MusaHəq”, “Cəhənnəm” romanlarında yaratdığı avtobioqrafizmləri müqayisəli şəkildə təhlil etmək.

**Tədqiqat metodları.** Tədqiqat işində tarixi müqayisəli və analitik metodlar əsas götürülərək avtobioqrafiya janrı haqqında dünya və Azərbaycan ədəbi nəzəri fikrinə müraciət edərək yeni mülahizələr irəli sürülmüşdür.

İsa Muğanna yaradıcılığı bütövlükdə avtobioqrafik hüdudlar çərçivəsində tədqiqata cəlb edilmiş, avtobioqrafizm yaradıcılığı fonunda yazıçının şəxsiyyətinə və yaradıcılığına olan münasibət araşdırılmışdır. Dünya və Azərbaycan alimlərinin fikirlərinə (məqalə və monoqrafik aspektdən) istinad edərək yeni elmi fikirlər tədqiqat işində öz əksini tapmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- Avtobioqrafik əsərlərin digər janrlardan – sənədli bioqrafiya, avtobioqrafiya, memuar, gündəlik və s. fərqləndirilməsi və avtobioqrafizm yaradıcılığının ədəbiyyatşünaslıq üçün önəmi;
- Azərbaycan bədii nəsrində avtobioqrafizm elementlərinin ədəbiyyatın sosioloji təhlili və dəyərləndirilməsi baxımından əhəmiyyəti;
- İsa Muğanna yaradıcılığının şəxsiyyəti ilə müqayisəli kontekstdə dəyərləndirilməsi;
- Avtobioqrafizm fonunda yazıçının həyat yolunun və yaradıcılıq təkamülünün izlənilməsi;
- İsa Muğannanın taleyi ilə hekayə, povest və romanlarında yaratdığı avtobioqrafik surətlər arasında paralellər aparılması;
- Müəllifin romanlarında avtobioqrafik surətlərin timsalında təxəyyül və gerçəklik arasındakı sərhədlərin müəyyənləşdirilməsi;
- Yazıçının eyni obrazı müxtəlif əsərlərində avtobioqrafik yöndən əks etdirməsinin fərqli aspektlərinin aşkarlanması.

**Tədqiqatın elmi yeniliyi.** Mövzunun müəyyən edilməsi və problemin qoyuluşu yeni istiqamətdə tədqiqat aparmağa zəmin yaratmışdır.

- İlk dəfə olaraq avtobioqrafik əsərlərin avtobioqrafiyalardan seçkin xüsusiyyətləri müəyyən edilərək tədqiqata cəlb olunmuşdur;

- İsa Muğannanın yaradıcılığına müxtəlif zamanlarda fərqli istiqamətlərdə müraciət olunsa da, ilk dəfə nasirin yaradıcılığı bütöv halda tədqiqata cəlb edilmiş və avtobioqrafizm hüdudları çərçivəsində araşdırılmışdır;

- İsa Muğanna şəxsiyyətinə və yaradıcılığına dair mövcud baxışlar və mülahizələr elmi cəhətdən dəyərləndirilmişdir;

- İsa Muğanna yaradıcılığının dövrləşmə məsələsinə fərqli rakursdan yanaşılmış, ədəbi irsi "İdeal"a qədərki və "İdeal"la başlayan dövrlərə bölünərək yeni aspektdə araşdırılmışdır.

- Tədqiqat işində yazıçının özü və şəcərəsi ilə bağlı qələmə aldığı faktlarla bədii nəsri arasında paralellər aparılaraq müəllifin yaradıcılığında avtobioqrafizmlərin ənənəvi səciyyə daşıdığı əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işi nəzəri və təcrübi baxımdan əhəmiyyətə malikdir.

Dissertasiya işinin nəticələrindən ali məktəblərin filologiya fakültələrində ədəbiyyat fənninin tədrisində yardımçı vəsait kimi istifadə oluna bilər. Tədqiqat işində İsa Muğanna yaradıcılığı avtobioqrafik hüdudlarda tədqiqata cəlb olunduğundan yazıçının irsini öyrənən araşdırmaçılar üçün də mənbə kimi əhəmiyyətli ola bilər. Həmçinin araşdırmanın nəticələrindən Azərbaycan ədəbiyyatı tarixinin yazılmasında qaynaq kimi bəhrələnilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları, elmi yenilik və yekun nəticələri tezislər, məqalələr şəklində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının reyestrinə daxil olan elmi məcmuələrdə, respublika və beynəlxalq əhəmiyyətli konfrans və simpozium materiallarında əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş (9 876 ş.i.), hər biri iki paraqraf olmaqla üç fəsil (birinci fəsil 45 737 ş.i., ikinci fəsil 73 048 ş.i., üçüncü fəsil 101 043 ş.i.), nəticə (11 175 ş.i.) və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

İşin ümumi həcmi 240 879 şərti işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Tədqiqatın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, araşdırmanın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti şərh olunur.

Dissertasiyanın birinci fəsli **"Avtobioqrafizmin bədii ədəbiyyatda inikası"** adlanır. Bu fəsil iki paraqrafdan ibarətdir. **"Çağdaş ədəbi-nəzəri düşüncədə avtobioqrafizm anlayışı"** adlanan birinci paraqrafda avtobioqrafik əsər və avtobioqrafiyanın fərqli çalarları nəzərə çatdırılır. Avtobioqrafiya bilavasitə yazıçının həyatını və yaşantılarını əks etdirən ədəbi nümunə kimi dəyərləndirilir. Bu səbəbdən də avtobioqrafiyaların yazılmasında zaman məfhumu əhəmiyyətli məsələdir.

Avtobioqrafiyaları hekayə, povest və ya roman adlandırmaq doğru olmaz. Ceyms Olninin gəldiyi qənaətə görə, "avtobioqrafiya yazıldıqdan sonra ya romana, ya da publisistikaya çevrilir"[15]. Lakin tədqiqatçının bu fikri ilə tam şəkildə razılaşmaq məqsədəuyğun deyil. Əgər avtobioqrafiya romana çevrilirsə, artıq bu avtobioqrafik əsər hesab olunmalıdır. Publisistikaya çevrilmə baxımından isə bu ehtimalla müəyyən mənada razılaşmaq olar. Müəllif həyatda yaşaya bilmədiklərini əsərdə canlandırdığı avtobioqrafik obrazda oxucuya təqdim etməklə təsəlli tapmış olur. Digər bir məqam ondan ibarətdir ki, ədib keçmişindən uzaqlaşmaq istəmədiyi üçün, avtobioqrafizmlər ərsəyə gətirir. *"Avtobioqrafiyalarda bəzən oxucunun emosiya gözləntiləri də onu məyus edə bilər. Çünki müəllifin qələbələri və məğlubiyyətləri trival olaraq mətnin içərisində itə, nəzəri cəlb etməyə bilər"*[16]. Bu halın baş verməsi təbiidir, çünki avtobioqrafik əsərdə müəllif yalnız özündən danışmır, eyni zamanda öz yaxınlarının və təxəyyülünün yaratdığı qəhrəmanların taleyini işıqlandırır. Bu səbəbdən də özü ilə bağlı məlumatları çox vaxt açıq, aşkar şəkildə

[15] Olney, James. Memory & Narrative: The Weave of Life-Writing / J.Olney. – Chicago: The University of Chicago Press, – 1998. – p. 186.
[16] Dadaşova, Ş.N. Avtobioqrafiyanın səciyyəvi cəhətləri və janr xüsusiyyətləri // – Bakı: Poetika.İzm, – 2014. – s. 227.

verə bilmir. Ona görə də avtobioqrafik əsərlər avtobioqrafiya və memuarlardan fərqlənir.

Avtobioqrafik əsərdə müəllif tərcümeyi-halından müəyyən detalları verməklə bərabər, təxəyyülünün məhsulu olan hadisələri də qələmə alır. Belə ədəbi nümunələr avtobioqrafik xarakter daşıyır, müəllifin özü haqqında verdiyi məlumatlar isə avtobioqrafizmlər adlanır.

Bu janrın ən böyük tədqiqatçılarından biri kimi Filipp Lejenin adını xüsusilə qeyd etmək lazımdır. Lejenin 1971-ci ildə çap olunan "Fransada avtobioqrafiya" monoqrafiyası dövrü üçün bu sahədə dəyərli tədqiqat işi idi. Məhz bu əsər yazılandan sonra avtobioqrafiya janrının öyrənilməsinə meyil gücləndi.

Bu paraqrafda sənədli bioqrafik əsərlərlə avtobioqrafik səciyyəli nümunələri fərqləndirən başlıca cəhət kimi yazıçı təxəyyülünün ikinci planda olması göstərilir. Belə əsərlərdə əsas üstünlük qaynaqlara, faktoloji əsaslara və əldə olan həqiqi məxəzlərə verilir. Bu səbəbdən yazıçı təxəyyülü əsərin gedişində müəyyən epizodlarda özünü göstərsə də, sənəd və faktlar daha gərəkli bilinir.

Avtobioqrafiya janrına yaxın olan janrlardan biri də gündəlikdir. Bu janrın avtobioqrafiyadan fərqi ondadır ki, avtobioqrafiya faktların və hadisələrin üzərindən müəyyən vaxt keçdikdən sonra qələmə alındığı üçün onda faktoloji və xronoloji ardıcıllıq tam gözlənilmir. Xronoloji ardıcıllığa əsaslanan gündəlikdə hadisələr çox zaman yığcam şəkildə qələmə alınır. Gündəlik digər janrlardan daha yayğındır, çünki avtobioqrafiya, avtobioqrafik əsər, sənədli bioqrafiya, memuar əsasən yazıçı, şair və ictimai xadimlər tərəfindən qələmə alındığı halda, gündəliyi hər kəs yaza bilər.

Fəslin **"Azərbaycan ədəbiyyatında avtobioqrafizm"** adlanan ikinci paraqrafında Azərbaycan ədəbiyyatında avtobioqrafizm yaratmaq ənənəsi izlənilir, qədim dövrlərdən günümüzədək avtobioqrafizm yaradan sənətkarlardan X.Şirvani, N.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, A.Bakıxanov, Y.V.Çəmənzəminli, İ.Şıxlı yaradıcılığında avtobioqrafizmlər tədqiqata cəlb olunur.

Avtobioqrafik əsərlərin çox olması etnoqrafik dəyərlərin qorunması baxımından əhəmiyyətlidir. Ədəbiyyatda tarixilik məsələsi

də avtobioqrafik əsərlərin üzərinə düşür. *"M.Hüseyinə görə, həyat və müasir insan sənətkarın ilk materialı və meyarı olmalıdır"*[17].

Avtobioqrafik əsərlərdə gerçəkliyin və poetikanın yer alması onu göstərir ki, bu tipli əsərlər ədəbiyyata, tarixə, ümumən insanşünaslığa xidmət edir.

Klassiklərin yaradıcılığında yer alan avtobioqrafizmlər dövrün mənzərəsinin əks etdirilməsində əhəmiyyətli rol oynayır. XII əsrdə yaşayıb yaradıcılıq yolu keçmiş Xaqani Şirvani əsərlərində avtobioqrafiyasından müəyyən məqamlara yer vermişdir. Şairin "Töhfətül-İraqeyn" poemasında avtobioqrafiyasını göstərməsi bu əsərin X.Şirvani haqqında mühüm informasiya daşıyıcısı olmasına rəvac vermişdir. *"Poema səfərnamə yaxud səfər xatirələri deyildir. Şair əsərini yazana qədər keçirdiyi həyat, qarşılaşdığı adamlar haqqında xatirələrini müxtəlif məsələlər, adamlar ətrafında düşüncələrini əks etdirir"*[18].

Əlbəttə, əsəri avtobioqrafiya və ya xatirə adlandırmaq düzgün olmaz, çünki burada bədiilik üstündür.

Azərbaycan və dünya ədəbiyyatında xüsusi yer qazanmış mütəfəkkir şair Nizami Gəncəvinin əsərlərində də avtobioqrafizmlərə rast gəlinir. N.Gəncəvi "Xəmsə"sinə daxil olan poemalarında özünün və yaxınlarının taleyindən fraqmentlər əks etdirmişdir. "Leyli və Məcnun" poemasında avtobioqrafik məqamlar daha çoxdur. Poemada "Şikayətin üzrü", "Oğlum Məhəmmədə nəsihət", "Ölən qohumlarımdan xatirələr" kimi parçalarda avtobioqrafizmlər yer alır.

XIV əsr Azərbaycan ədəbiyyatının filosof şairi İ.Nəsimi yaradıcılığında da maraqlı avtobioqrafizmlərə rast gəlinir. Ədəbiyyatşünas alim Səadət Şıxıyeva "Nəsiminin şeirlərində gizlənmiş həyatı" adlı məqaləsində yazır: *"Nəsiminin bir sıra şeirləri tam, bəzi əsərləri isə fraqmental olaraq avtobioqrafik xarakterlidir və həyatının üəyyən məqamlarının söz yaddaşına həkki şəklində bizə bələdçilik edir"*[19].

---

[17] Abasov, A.Ə. Klassiklər həmişə müasirdir / A.Abasov. – Bakı: Nurlan, – 2009. – s. 213

[18] Səfərli, Ə. Azərbaycan ədəbiyyatı tarixi (qədim və orta əsrlər). Dərslik / Ə.Səfərli, X.Yusifli. – Bakı: Ozan, – 2008. – s.127

[19] Şıxıyeva, S.M. Nəsiminin şeirlərində gizlənmiş həyatı // – Bakı: Çapar, – 2019. – s.72

“Məndə sığar iki cahan, mən bu cahana sığmazam” misrası ilə başlanan qəzəl İ.Nəsiminin dolğun və mükəmməl avtoportretidir. Bu qəzəldə müəllif mükəmməl poetik ifadə vasitələrindən istifadə edərək öz obrazını dolğun şəkildə yaratmışdır.

Klassik ədəbiyyatın görkəmli nümayəndələrindən olan Məhəmməd Füzulinin bədii irsində avtobioqrafizmlər xüsusi yer tutur. “Şikayətnamə” əsəri bu baxımdan diqqəti cəlb edir. Əksər tədqiqatlarda “Şikayətnamə” əsərinin yazılması səbəbi kimi Osmanlı Sultanının şairə ayırdığı təqaüdü ala bilməməsi göstərilir.

Akademik Həmid Araslı yazır: *“Məktub şəklində yazılmış olan bu əsər (“Şikayətnamə”) XVI əsr feodal-ruhani quruluşunun mənfi xüsusiyyətlərini məharətli surətdə açıb göstərir”*[20].

H.Araslının da qeyd etdiyi kimi, əsərdə M.Füzuli yalnız özünə deyil, zəmanəsində cəmiyyətə olan münasibəti göstərir.

XIX-XX əsr Azərbaycan ədəbiyyatında avtobioqrafik obrazların yer alması xüsusən milli kimliyin unudulmaması baxımından əhəmiyyətlidir. Avtobioqrafizm yaratmağın bir mühüm cəhəti də ondadır ki, müəyyən dövrdə senzura ilə üzləşən ədəbiyyat açıq ifadə edə bilmədiyi fikirləri avtobioqrafik obrazlar vasitəsi ilə oxucuya çatdırır.

Bu paraqrafda həmçinin Y.V.Çəmənzəminlinin “Studentlər” romanının qəhrəmanı Rüstəm, İ.Şıxlının “Dəli Kür” romanında Cahandar ağa avtobioqrafik obrazlar kimi səciyələndirilir. Cahandar ağa obrazında İ.Şıxlının xarakter cizgilərinin olduğu göstərilir. Bununla belə, *“Cahandar ağanı sadəcə bədii obraz sayanlar yanılmırlar, çünki bu obrazda bir sıra ideya-estetik, mənəvi-etik, qnoseoloji keyfiyyətlər bir vəhdət halında təzahür edir”*[21]. Ədibin xarakteri bütövlükdə Cahandar ağa ilə üst-üstə düşmür, əsərdə canlandırılan Cahandar ağa İ.Şıxlının tam özü deyil, onların xarakterində yaxın cizgilər olduğu kimi, fərqli məqamlar da çoxdur.

Dissertasiyanın ikinci fəsli **“İsa Muğannanın bioqrafik cizgilərinin yaradıcılıq prosesində əksi”** adlanır. Bu fəsil iki

---

[20] Araslı, H.M. Böyük Azərbaycan şairi Füzuli / H. Araslı. – Bakı: Uşaq və Gənclər nəşriyyatı, – 1958. – s. 229.

[21] Cəfərov, N.Q. Klassiklərdən müasirlərə / N.Cəfərov. – Bakı: Çaşıoğlu, – 2004. – s. 179.

paraqrafdan ibarətdir. **“İsa Muğanna fenomeni şəxsiyyət və cəmiyyət kontekstində”** adlanan birinci paraqrafda ədibin şəxsiyyətinə və əsərlərinə ədəbi tənqidin münasibəti təhlilə cəlb olunur. Yazıçının İsa Hüseynov və İsa Muğanna imzaları ilə keçdiyi həyat və yaradıcılıq yolu araşdırılır.

Ədibin ilk qələm təcrübəsi olan “Anadil ötən yerdə” hekayəsi onun yaradıcılığının sonrakı istiqamətlərini müəyyənləşdirən, müəllifin silsilə avtobioqrafik obrazlarının başlanğıcı olan əsər kimi qiymətləndirilir.

Bəllidir ki, sovet siyasi rejiminin müəyyən bir dönəmində konfliktsizlik nəzəriyyəsi təbliğ olunurdu. Yazılan əsərlərdə hadisələr müsbət istiqamətdə cərəyan etməli, sonluq nikbin əhval-ruhiyyə daşımalı idi. İ.Muğanna bu dövrdə qələmə aldığı əsərlərdə şahidi olduğu real hadisələri təxəyyül süzgəcindən keçirərək bədiiləşdirirdi. Bu səbəbdən də o dönəmdə ədib haqlı-haqsız ədəbi tənqidlərə tuş gəlirdi.

Bu paraqrafda həmçinin yazıçının yaradıcılığının müəyyən dönəmində bəzi əsərlərindən qismən imtina etməsinin səbəbləri aydınlaşdırılır. 50-ci illərdən başlayaraq nasirin “Bizim qızlar”, “Dan ulduzu”, “Doğma və yad adamlar”, “Yanar ürək”, “Saz”, “Tütək səsi”, “Kollu Koxa” və digər əsərləri ardıcıl nəşr olunmuşdur. Yaradıcılığının sonrakı illərində İ.Muğanna “Bizim qızlar” povestindən tam, “Doğma və yad adamlar”, “Dan ulduzu” ədəbi nümunələrindən qismən imtina etmişdir. Xalq yazıçısı Anar bildirirdi ki, *“Milli nəsrdə, örnək iki yazarımız – Mirzə Cəlil Məmməd-quluzadə və İsa Hüseynov idi. Məhz 60-cı illərdə Mirzə Cəlil irsi sovet ideologiyasının dar qəliblərindən çıxarılır, vulqar*-sosioloji *yozumların çərçivəsindən azad edilirdi”*[22].

80-ci illərdən başlayaraq, İsa Muğannanın şəxsiyyəti və yaradıcılığının artıq ədəbi tənqidin hədəfində olmadığı və buna yazıçının “İdeal” romanında irəli sürdüyü yeni konsepsiyanın səbəb olduğu vurğulanır. “İdeal”ın yazılmasından sonra İ.Muğanna yaradıcılığında baş verən yenilikləri aşağıdakı kimi səciyyələndirmək olar:

---

[22] Anar. Qəribə dünyanın adamı // Ədəbiyyat qəzeti. – 2008, 30 may. – s. 3.

1. Muğanna imzasını qəbul edir;

2. Yazıçı "İdeal"ı göndərilən Ün vasitəsi ilə qələmə alır (bioqrafiyasında yazdığına əsasən);

3. İ.Muğannanın yaradıcılığında "İdeal" və ondan sonra yazılan əsərlərdə OdƏr dili və SafAğ elmi əsas yer tutur;

4. Yazıçı xeyli zaman cəmiyyətdən uzaqlaşıb, bədii yaradıcılıqla məşğul olur.

"İdeal" və ondan sonra yazdığı əsərlərdə SafAğ elminin, OdƏr dilinin və fəlsəfi baxışların yer alması ədibin əsərlərinə marağın azalmasına səbəb olur. Bununla belə, yaradıcılığının ikinci dövründə onu təqdir edənlər də az deyildi. Professor R.Kamal "İsaya inanmaq" adlı məqaləsində yazıçını dəyərli fikirlərin əzabkeşi kimi xarakterizə edir, sağlığında müqəddəsləşdiyini bildirir. Tədqiqatçıya görə, yazıçının Muğanna imzası təxəllüs deyil, kahin, təriqət nümayəndəsi anlamındadır[23].

İ.Muğannanı fərqləndirən cəhətlərdən biri də odur ki, ədib əsərlərinin oxunma ardıcıllığını özü təqdim etmişdir:

1. "İdeal";
2. "Məhşər";
3. "Qəbiristan";
4. "GurÜn";
5. "İsahəq, Musahəq";
6. "Cəhənnəm".

Müəllifə görə, əsərləri göstərilən ardıcıllıqla oxunarsa, oxucu hadisələrin gedişini və əsərin qayəsini düzgün dərk edər.

Bu paraqrafda ədibin bədii irsinin dövrləşdirilməsinə münasibət bildirilir, yazıçının bədii nəsri xəlqiliyi və bəşəriliyi, sosialyönümlülüyü və fəlsəfiliyi əsas götürülməklə "İdeal"a qədərki və "İdeal"la başlanan dövrlərə bölünür. Yazıçının "İdeal"a qədərki əsərlərini İsa Hüseynov, "İdeal" və sonrakı əsərlərini İsa Muğanna imzası ilə qələmə aldığı nəzərə çatdırılır.

Fəslin **"Yazıçının bədii dünyasında avtobioqrafizmin rolu"** adlanan ikinci paraqrafı ədibin milli kimlik, milli şüur, əxlaqi və mənəvi dəyərlərin, kulturoloji və psixoloji məsələlərin açıq ifadə

---

[23] Kamal, R. İsaya inanmaq // Ədəbiyyat qəzeti. – 2020, 14 iyun. – s. 23.

oluna bilmədiyi sovet dönəmində, o cümlədən müstəqillik illərində qələmə aldığı əsərlərində avtobioqrafizmlərin xalq ruhunun və taleyinin bədiiləşdirilməsində oynadığı rolu aydınlaşdırır. Ədibin “Saz”, Tütək səsi”, “Kollu koxa”, “Şəppəli”, “Söz yarası” povestlərində, “Məhşər”, “İdeal”, “Cəhənnəm”, “İsaHəq Musahəq”, “GurÜn” romanlarında avtobioqrafizmlər araşdırılır.

Müəllif avtobioqrafiyasının yer aldığı “Tütək səsi” povestində psixoloji məqamların ən xırda detalları ilə əksini tapdığı göstərilir: *“Ədib Nuru obrazını yaratmaqla əsərin müəyyən fraqmentlərində sanki özü danışır. Yazıçının yaşadığı həyat oxucunun gözləri qarşısında canlanır”*[24].

Yazıçının 1967-ci ildə qələmə aldığı “Kollu Koxa” povestində təbəqələşmənin yaratdığı mənfiliklər əksini tapır. Povestdə bir kəndin problemləri fonunda bütün cəmiyyətdə yaşanan çatışmazlıqlar işıqlandırılır. İ.Muğanna Kollu Koxa obrazında da avtobioqrafik cizgilərini vermişdir. Əsərdə vəzifəli insanların özündən yüksəklərin kölgəsinə sığınması tənqid olunur. Povestdə müharibədən sonrakı dövrdə insanların sosial və mənəvi problemlərlə üz-üzə qaldığı dönəmdə mövcud quruluş ifşa olunur. “Kollu Koxa” obrazı kolxoz sədri Cavanşirə və sovet sədri işləmiş Qılınc Qurbana sözünü açıq şəkildə deməyi bacarır. Yüksək vəzifə tutan şəxslərdən Koxanın ehtiyatlanmayıb cəsarət nümayiş etdirməsi surətin müəllifin avtobioqrafiyasının daşıyıcısı olduğunu söyləməyə əsas verir. Bir vaxtlar İ.Muğanna da yazdığı əsərlərə görə Mərkəzi Komitə üzvləri tərəfindən haqsız tənqidlərlə qarşılaşmış və haqsızlığa sərt münasibət sərgiləmişdir.

Yazıçı “Şəppəli” povestini yaradıcılığının “İdeal”a qədərki dövründə qələmə almışdır. Əsərdə “Şəppəli” ləqəbli Mədəd obrazı müəllifin bütövlükdə avtobioqrafik surəti olmasa da, onda İ.Muğannanın xarakterindən düzlük, ədalətlilik, şəffaflıq kimi cizgilər özünü göstərir.

---

[24] Mikayılov, Ü.A. İsa Muğannanın “Saz” və “Tütək səsi” povestlərində avtobioqrafik fraqmentlər // Klassik Azərbaycan ədəbiyyatı və incəsənətinin milli özünütəsdiqdə və mərkəzi asiyadakı mədəni tərəqqidə yeri elmi konfransının materialları, – Bakı: – 2020. – s. 152-153.

Bu paraqrafda “Məhşər” romanının fərqli yöndən təhlili diqqəti cəlb edir. İ.Nəsimi surəti ilə İ.Muğanna şəxsiyyəti arasında yaxınlıq olduğuna diqqət çəkilir. Yazıçının fəlsəfi düşüncələrini İ.Nəsimi obrazında əks etdirdiyi və “Məhşər”dən sonra qələmə aldığı əsərlərdə şairin təsirinin aydın duyulduğu nəzərə çatdırılır. *“Yazıçı və ya şair üçün xarakterikdir ki, onun düşüncəsinin və şəxsinin təzahürü yaradıcılığında əks edilsin. Nəsimi və Muğanna yaradıcılığında* düşüncə, xarakter, şəxsiyyət bütövlüyü vəhdət halında tamlıqla əks *olunur”*[25].

Ədibin “İdeal” romanında və demək olar ki, indiyədək araşdırılmamış “Cəhənnəm”, “İsaHəq MusaHəq”, “GurÜn” əsərlərində milli kimlik, özünüdərk, milli dil məsələləri müəllif avtobioqrafiyası fonunda təhlil olunur.

Bu paraqrafda İ.Muğannanın nəsr əsərləri ilə yanaşı, az sayda qələmə aldığı şeirlərində də avtobioqrafizmlər tədqiqata cəlb olunur.

Aparılan təhlilər göstərir ki, yazıçı sovet dövründə qələmə aldığı əsərlərdə yaratdığı avtobioqrafizmlər vasitəsilə həm də dövrünün çatışmazlıqlarını tənqid edir. “Saz”, “Tütək səsi”, “Kollu Koxa”, “Şəppəli” povestlərində yaratdığı İsfəndiyar kişi, Nuru, Koxa, Şəppəli surətləri yazıçı avtobioqrafizminin daşıyıcısı kimi çıxış edir.

Dissertasiyanın üçüncü fəsli **“İsa Muğannanın bədii nəsrində avtobioqrafizm bədii identifikasiya müstəvisində”** adlanır.

Fəslin **“Hekayə və povestlərdə avtobioqrafik obraz yaradıcılığı və avtobioqrafik refleksiya”** adlanan birinci paraqrafında “Anadil ötən yerdə”, “Niyə”, “Cəbhədən məktub”, “Güzgülü Əhməd”, “Koroğlunun çən qalası” hekayələrində, “Saz”, “Tütək səsi”, “Quru budaq”, “Faciə, “Ömür karvanı”, “Qırx kisə qızıl”, “İlan dərəsi” povestlərində avtobioqrafik obrazlar araşdırmaya cəlb olunur.

“Anadil ötən yerdə” hekayəsində ədibin atası Mustafa Hüseynov və dayısı Niyazinin bioqrafik surətlərinə diqqət çəkilir. İ.Muğanna əsərdə dayısını öz adı ilə, atasınının obrazını isə Hüseynov kimi təqdim edir. Yazıçının avtobioqrafiyasından oxucuya

---

[25] Mikayılov, Ü.A. İmadəddin Nəsimi düşüncəsinin və yaradıcılığının İsa Muğanna bioqrafiyasına təcəllası // Nəsiminin fəlsəfəsi və ümumbəşəri dəyərlər, – Bakı: Elm və təhsil, – 2019. – s. 451-458.

o da məlumdur ki, Mustafa Hüseynov Böyük Vətən müharibəsindən qayıtdıqdan sonra ali təhsilli tarix müəllimi olmasına baxmayaraq, maarif müdiri vəzifəsində işləməkdən imtina edir və meşə təsərrüfatı idarəsində direktor kimi çalışmağı daha əhəmiyyətli bilir. Nasir avtobioqrafiyasında buna səbəb kimi Qarayazı meşəsinin bərpasını göstərir. Mustafa Hüseynov doğma təbiətə çox bağlı idi: *"Mən həmişə bu yerləri görərkən buradan keçib cəbhəyə yola düşdüyüm günü xatırlayıram. Onda da belə bir aprel səhəri idi. Ətraf səssiz, Kür coşqun, mən də yalqız"*[26]. Hekayədə canlandırılmış bu fikir Hüseynov obrazını dərin düşüncəli, həssas, təbiətə vurğun bir surət kimi xarakterizə edir.

İ.Muğanna "Niyə" adlı hekayəsində uşaqlıq illərinə səyahət edir, babasının bacısı oğlu Dünyamalının taleyindən bəhs edir.

"Cəbhədən məktub" hekayəsində də nasir uşaqlıq illərinin hadisələrindən söz açır, özünün və atasının bioqrafik obrazlarını yaradır.

Ədibin öz portretini yaratdığı əsərlərdən biri də "Güzgülü Əhməd" hekayəsidir. Əsərdə İ.Muğannanın gənclik illərində təhsili ilə bağlı qarşılaşdığı çətinliklər yer alır.

"Koroğlunun çən qalası" hekayəsi isə müəllifin 1994-cü ildə Ümummilli lider Heydər Əliyevlə Türkiyəyə səfər təəssüratlarını əks etdirir.

Nasirin "Saz", "Tütək səsi", "Quru budaq" povestlərində özünün, atası Mustafa Hüseynovun, babası Omar ağanın obrazlarını yaratdığı göstərilir. "Faciə", "Ömür karvanı", "Qırx kisə qızıl" povestlərində isə Zəlimxan, Heybət, Zahid surətlərinin İ.Muğanna şəxsiyyətinin cizgilərini daşıdığı vurğulanır.

Ədibin "Saz" povestində müharibə dövrü kənd həyatı əks olunur. Povestdə canlandırılan İsfəndiyar kişi obrazı İ.Muğannanın babası Omar ağanın bioqrafik surətidir. Yazıçı avtobioqrafiyasında qeyd edir ki, babası Omar ağa oğullarını erkən itirmiş, bircə ədibin atası Mustafa Hüseynov sağ qalmışdır (Mustafa Hüseynov da həyatdan tez köçmüşdür). İsfəndiyar kişinin oğlanları isə Böyük Vətən müharibəsinə getmiş və geri qayıtmamışlar. İsfəndiyar kişi ilə

[26] Muğanna, İ.M. Seçilmiş əsərləri: [6 cilddə] / İ.Muğanna. – Bakı: Avrasiya press, – c. 2. – 2009. – s. 308.

Omar ağanı birləşdirən başqa bir cəhət isə hər ikisinin saza həddən artıq bağlılığıdır.

"Tütək səsi" povesti "Saz" povestinin davamı kimi təqdim edilir. Povestdə yaradılmış Nuru surəti İ.Muğannanın avtobioqrafik obrazıdır. Povestdə bir məqam müəllifin taleyinin bəzi görünməyən tərəflərinə işıq tutur. Xurcunun bir gözündə sədrin göndərdiyi un, o biri gözündə isə bidon vardır. Un əmək gününə düşən pay, bidondakı bal isə sədrin qapısındakı arı yeşiklərindəndir. Əsərdə yer alan bu epizoda bənzər hadisə yazıçının həyatında da baş vermişdir.

Povestdə baş verən hadisələr "Quru budaq" əsərində davam etdirilir. "Tütək səsi"nin məktəbli Nuru obrazı "Quru budaq" əsərində məktəb direktoru, balaca Şöşü isə (Şövkət Tahirli) məktəbin yuxarı siniflərində oxuyan şagirddir.

Tahir Tahirli Vətən müharibəsinə yollanır və geri qayıtmır. Nuru ilə Şöşünün anası Əsmət Mollagülənin verdiyi əzablardan xəstələnib dünyasını dəyişir. Qardaşının himayəsində böyüyən Şöşü olanları illər sonra bildikdə ata-anasının qisasını almaq qərarına gəlir. İ.Muğanna atasının bioqrafiyasından gələn cizgiləri Tahir Tahirli və Nuru obrazlarında əks etdirməklə iki fərqli avtobioqrafik surət yaradır. Müəllif "Quru budaq" povestində dövrün acılarını qələmə almaqla bərabər, öz avtobioqrafiyası fonunda milli-mənəvi, əxlaqi dəyərləri yaddan çıxarmır, ailə-məişət məsələlərinə də yer ayırır.

İ.Muğanna yaradıcılığında xüsusi yer tutan "Faciə" povestində hadisələr ailə-məişət problemləri üzərində qurulur, dövrün çatışmazlıqlarını əks etdirir. Əsərdə Zəlimxanın yazıçı və jurnalist kimi fəaliyyəti ilə bağlı hadisələr müəyyən çalarları ilə İ.Muğannanın bioqrafiyası ilə səsləşir. Müəllif bu povesti yazmaqla ona işarə edir ki, bəşər cəmiyyəti üçün əhəmiyyətli olan meşənin qırılmasında vəzifəsinin məsuliyyətini dərk etməyən insanlar günahkardır. Zəlimxan düzgünlüyün, halallığın öz ailəsindən başlamasını istəyirdi. Beləliklə, Zəlimxan obrazının avtobioqrafik cizgilər daşıdığı aydın görünür.

İ.Muğannanın yaradıcılığının birinci dövründə qələmə aldığı əsərlərdən biri də "Ömür karvanı" povestidir. Əsərdə yaradılmış Heybət obrazında müəllif portretinin bəzi cizgiləri əks olunur, lakin Heybətlə İ.Muğannanın xarakteri eynilik təşkil etmir.

İ.Muğannanın yaradıcılığında avtobioqrafizmin xüsusi yer tutması həm də onu göstərir ki, yazıçı təxəyyülünü işə salmaqla bərabər, gerçək hadisələrin də inikasına əhəmiyyət verirdi. "Qırx kisə qızıl" povestini nasir XXI əsrdə oxuculara təqdim etsə də, əsərdə baş verən hadisələr XX əsrin ortalarına təsadüf edir. Povestdə tarixiliklə yanaşı, folklor ünsürləri də özünü göstərir.

Əsərdə Zahid obrazı müəyyən mənada yazıçının xarakterinin və taleyinin müəyyən tərəflərini oxucuya təqdim edir. Ədib povestdə təkcə özünün yox, atası Mustafa Hüseynovun, anasının, xalasının, xalası qızı (sonradan həyat yoldaşı) Firuzə xanımın bioqrafik obrazlarını yaradır.

Nasirin "İlan dərəsi" və ya "Peyğəmbərin taleyi" adlandırdığı yarı fantastik əsər ədibin yaradıcılığının son illərinə − XXI əsrin ikinci on illiyinə təsadüf edir. Müəllif əsərin əvvəlində də qeyd etdiyi kimi, povesti keçmiş hadisələrə əsaslanaraq qələmə almış, eşitdiklərini və yaşadıqlarını bədii təxəyyülünün gücü ilə birləşdirərək avtobioqrafik əsər yaratmışdır. Povestin əsas qəhrəmanları Süleyman Peyğəmbər (ƏsƏlMən) və onun həyat yoldaşı Ağ gəlindir. Süleyman Peyğəmbər bədii mətnin bəzi hissələrində Musa ağa kimi də təqdim olunur. İ.Muğannanın avtobioqrafiyasından məlumdur ki, ədibin ulu babasının adı Musa olmuşdur. Süleyman peyğəmbər vasitəsilə yazıçının şəxsi düşüncələrini ifadə etdiyi görünür. İ.Muğanna müsahibələrində və yazılarında insanları müharibədən, qırğından uzaq durmağa, dünyanı cəhalətdən xilas etmək üçün elmlə məşğul olmağa çağırırdı. İ.Muğanna şəcərəsi ilə bağlı "Həyatımdan səhifələr" adlı avtobioqrafiyasından məlum olur ki, babası Omar ağa, Omar ağanın atası Hüseyn ağa, Hüseyn ağanın atası Musa ağa olmuşdur. Bu və digər faktlar göstərir ki, İ.Muğanna əsərdə öz taleyini əks etdirmişdir. Yazıçının Padişahlıq kəndi ilə bağlı yazdıqları bu fikri bir qədər də qüvvətləndirir. İ.Muğannanın avtobioqrafiyasından o da bəllidir ki, onlar əvvəl Padişahlıq kəndində məskunlaşmış, sonra Ağstafanın Muğanlı kəndinə köç etmişlər. Yazıçının İsa Hüseynovdan Muğannaya çevrilməsində bu amil də həlledici rol oynamışdır.

İ.Muğanna yaradıcılığının tədqiqi göstərir ki, bəzən bir bioqrafik obraz bir neçə əsərdə iştirak edir. Yazıçı atası Mustafa

Hüseynovun surətini "İdeal", "Cəhənnəm" romanlarında, "Qırx kisə qızıl" povestində və digər əsərlərində fərqli adlarla canlandırır. Bu da oxucuya imkan verir ki, təsvir edilmiş bioqrafik obrazın xarakterini və yaşantılarını zaman və məkan kontekstində izləsin. Avtobioqrafizm yaradıcılığında daha bir faydalı cəhət tarixiliyin nəzərə alınmasıdır. Belə ki, yazıçı avtobioqrafik surəti yaradılmış şəxsin obrazı fonunda həmin dövrün hadisələrini, zamanın tələblərini, adət-ənənələrini oxucuya çatdırır.

Üçüncü fəslin **"Roman yaradıcılığında avtobioqrafik laylar"** adlanan II paraqrafında "Məhşər", "İdeal", "Qəbiristan", "İsaHəq MusaHəq", "Cəhənnəm" romanlarında əksini tapan hadisələrin avtobioqrafik qatları araşdırılır, İ.Muğannanın şəxsiyyəti və həyatı ilə bağlı məqamlar müqayisə və paralellərlə təqdim olunur. "Məhşər" əsəri yazıçının yaradıcılığında roman yazma ənənəsinin başlanğıcı hesab edilir. Bununla yanaşı, "Məhşər" romanı nasirin bədii nəsrində keçid dövrünü ehtiva edən əsər kimi də xarakterizə oluna bilər.

İ.Nəsimi haqqında yazdığı "Cahana sığmayan Azərbaycan şairi" adlı kitabında akademik İ.Həbibbəyli "Məhşər" romanını yüksək dəyərləndirərək yazır ki, *"Xalq yazıçısı İsa Hüseynovun İmadəddin Nəsimidən bəhs edən "Məhşər" romanı Azərbaycan ədəbiyyatında tarixi roman janrının ən yaxşı nümunələrindən biri kimi qəbul olunur"*[27].

Romanda Nəsiminin Şirvanşah hökmdarı İbrahimlə və Əmir Teymurla görüşləri xüsusi qeyd olunmuşdur. Bəzi məqamlarda İ.Nəsimi şəxsiyyətində İ.Muğanna xarakterinin çalarları aşkar duyulur.

Əslində, nə İ.Nəsimi, nə də İ.Muğanna Allahı inkar etmir. Son müsahibələrinin birində "vicdan dinin hamısıdır" – deyən İ.Muğanna hər kəsin ilk növbədə öz daxilini saflaşdırmasına diqqət çəkmişdir. Nəsiminin Əmir Teymurla görüşü zamanı İ.Muğannanın taleyindən məqamlar şairin obrazında qismən öz əksini tapır.

İ.Nəsimi və İ.Muğannanın insana yüksək dəyər verməsi onları birləşdirən cəhət kimi götürülə bilər. İ.Muğanna Fəzlin son məktubunda övladlarını Nəsimiyə tapşırdığını yazır. "Həyatımdan

[27] Həbibbəyli, İ.Ə. Cahana sığmayan Azərbaycan şairi / İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – 2019. – s. 38.

səhifələr" adlı avtobioqrafiyasında qeyd edir ki, özünün və həyat yoldaşının bacı, qardaşlarının qayğısını çəkmək onun çiyinləri üzərinə düşmüşdür. İ.Nəsiminin Şirvanşah hökmdarı İbrahimə Fəzlin verdiyi kitabları hədiyyə etməsi daha bir avtobioqrafik çalar kimi dəyərləndirilə bilər. İ.Muğanna da "İdeal" romanında vərəsə kitablar haqqında bəhs edir. İ.Nəsiminin İbrahimə bağışladığı kitablar da vərəsə kitablar kimi yüksək elmi əhəmiyyət daşıyır.

"Məhşər" romanından sonra müəllif daha da ruhlanaraq ədəbi mühitdə, bütövlükdə cəmiyyətdə əks-səda yaradan "İdeal" romanını qələmə alır.

"İdeal" romanında Mədəd Əmirlinin ölüm hadisəsi ilə İ.Muğannanın atası Mustafa Hüseynovun ölümündə müəyyən oxşarlıqların olduğu əsaslandırılır. Əsərdə olan faktlarla gerçək hadisələr arasında paralellər aparılır və yazıçının atası Mustafa Hüseynovun Mədəd Əmirlinin prototipi olduğu qənaətinə gəlinir. Yazıçı avtobioqrafiyasında bu məqamları açıq yazdığından əsəri oxuyarkən hadisələrin paralelliyi oxucuda elə fikir yaradır ki, Mədəd Əmirli Mustafa Hüseynovun taleyini yaşayır. Bununla bağlı ədəbiyyatşünas alim Məti Osmanoğlu yazır: *"İsa Hüseynov – Muğanna atasının ölümü faktını həm "İdeal" romanında, həm də yaradıcılığının son dövründə "araşdırmışdır". Xatirələr Muğannanın usta qələmi ilə nə qədər ədəbi səciyyə qazansa da, buradakı araşdırma məhkəmə xronikası təsiri bağışlayır"*[28].

Müəllifin avtobioqrafiyasını, "İdeal" və "Cəhənnəm" romanlarını oxuduqdan sonra hadisələrin həmahəngliyi açıq nəzərə çarpır. "Cəhənnəm" romanında təsvir olunan hadisələr İ.Muğannanın "Həyatımdan səhifələr" adlı bioqrafiyası ilə səsləşir. Nasir Səməd Əmirli obrazında da öz xarakterindən müəyyən cizgilər verməklə avtobioqrafizm yaradır. Lakin "İdeal" romanının əsas qəhrəmanlarından olan Səməd Əmirli bütövlükdə İ.Muğannanın avtobioqrafik obrazı kimi götürülə bilməz. Səməd Əmirli surətinin yaradılmasında yazıçı təxəyyülü üstünlük təşkil edir.

"Məhşər" və "İdeal" romanlarında tarixilik daha geniş yer tutduğu üçün İ.Muğanna avtobioqrafik obrazlarla yanaşı, sənədli

---

[28] Osmanoğlu, M. Sözün o üzündə. Ədəbi fraqmentlər / M.Osmanoğlu. – Bakı: Kitab klubu, – 2018. – s. 173.

bioqrafik surətlər də yaratmışdır. Bu əsərlər sovet dönəmində qələmə alındığından müəllif avtobioqrafizmlərə daha çox yer vermiş, bioqrafik surətlər vasitəsilə senzuranı aşmış və bəşəri əhəmiyyətli məsələləri qələmə almışdır. Ədibin "Qəbiristan", "İsaHəq MusaHəq", "Cəhənnəm" romanları müstəqillik dövründə yazılsa da, həmin əsərlərdə də sovet rejiminin siyasi ideologiyasına münasibət bildirilmiş, dil və tarixlə bağlı əhəmiyyətli məsələlər, milli kimlik problemi qabardılmışdır.

Yazıçının müstəqillik dövründə yazdığı əsərlərdən biri də "Qəbiristan" romanıdır. Əsər ötən əsrin 90-cı illərinin əvvəlində Azərbaycandakı sosial-siyasi vəziyyəti, ölkədə gedən mürəkkəb prosesləri əks etdirir. İ.Muğanna da müsahibələrində vurğulamışdır ki, o, tez-tez Ün eşidir. Elə bu səbəbdən də Səmi surətində müəyyən mənada İ.Muğannanın avtobioqrafik cizgiləri sezilir. Müəllif "Qəbiristan" romanının yazılma tarixçəsini də bioqrafiyası ilə əlaqələndirir.

"İsaHəq, MusaHəq" romanı İ.Muğannanın müstəqillik dövrü yaradıcılığına aiddir və həmin əsərdə də avtobioqrafik obrazlar yer alır. Romanın əsas ideyası sovet rejimi ilə milli şüur arasında gedən mübarizəni göstərməkdir. Yazıçının başlıca məqsədi milli təfəkkürü, şüuru Rəşid Fətullayevin yazıçı obrazı ilə çatdırmaq istəyidir. Romanda Rəşid Fətullayevə verilən xarakterik xüsusiyyətlər İ.Muğannanın avtobioqrafiyasından irəli gəlir. Müəllif yazır: *"Düz saat 12-də stolun dalına keçib bir də küçədə hərəkət başlayanda ayağa durürdum"*[29]. İ.Muğannanın həyatı ilə bağlı məqamlardan oxucusuna tanışdır ki, ədib bədii yaradıcılıqla əsasən gecələr məşğul olmuşdur. Sovet dövründə ədəbiyyat senzura qadağaları ilə qarşılaşsa da, Rəşid Fətullayevin "Sağ" əsəri və İ.Muğannanın "İdeal"ı bütün maneələri dəf edərək çap olunur. Professor Cəlal Abdullayev yazırdı ki, *"Muğanna əsərlərində həqiqi filosof kimi çıxış edir və filosofluq ona çox yaraşır"*[30].

---

[29] Muğanna, İ.M. İsaHəq, MusaHəq / İ.Muğanna. – Bakı: Hədəf nəşrləri, – 2013. – s. 49.

[30] Abdullayev, C.M. Əsərləri: [7 cilddə] / C.Abdullayev. – Bakı: Çaşıoğlu, – c.1 – 2010. – s. 294.

İ.Muğanna "İdeal" romanından sonra yazdığı əsərlərdə, "İdeal"da baş verən hadisələri fərqli situasiyalarda fraqmentar olaraq əks etdirir. Nasir "Cəhənnəm" əsərini dörd bölməyə ayıraraq onlardan birincisini "Fantastikasız fantastika", sonrakı yarımbaşlıqları isə yenə "Fantastikasız fantastika" adlandırmışdır. Romanın əsas xətlərindən biri yaşadığımız planetdə adamlara cəhənnəm əzabı verən Bünyad bəyin Göyə (kainata) aparılaraq saflaşdırılmasıdır. Səməd Əmirli, Bünyad bəyə ardıcıl suallar verir. Səməd Əmirli, Bünyad bəydən Pirvəlinin, Hacıəlinin, İsa Əfəndinin, Musanın, Hüseynin və Mustafa Hüseynovun ölümləri ilə bağlı baş verənlərlə maraqlanır.

Ədib atasının bioqrafiyasını (xüsusilə ölüm hadisəsini) demək olar ki, romanda olduğu kimi sərgiləmişdir. Xüsusi dəsti-xətti, seçkin xarakteri olan nasirin "Muğanna" imzası ilə qələmə aldığı ədəbi nümunələrdə OdƏr dili və mədəniyyəti ilə bərabər, Muğannalıların tarixindən də bəhs olunur.

**Nəticədə** tədqiqata yekun vurularaq əldə edilmiş əsas müddəalar və elmi-nəzəri qənaətlər ümumiləşdirilmişdir:

– Bədii ədəbiyyatda avtobioqrafik obraz yaratma ənənəsi qədim dövrdən izlənilsə də, avtobioqrafiya janrının ədəbi-nəzəri fikirdə araşdırılması XIX əsrə təsadüf edir. Bu məsələ XX əsrin ikinci yarısında geniş vüsət alır. Azərbaycan ədəbiyyatşünaslığında isə XXI əsrdən başlayaraq tədqiq edilir;

– "Avtobioqrafiya" və "avtobioqrafik əsər" anlayışları fərqləndirilməlidir. Fikrimizcə, avtobioqrafiya müəllifin görüb yaşadıqlarının bilavasitə əksi, avtobioqrafik əsər isə yazıçının özünün və yaxınlarının həyatının real cizgiləri ilə təxəyyülün vəhdəti kimi qavranılmalıdır;

– XII əsrdən günümüzə qədər çox sayda avtobioqrafik əsərlər qələmə alınmışdır. X.Şirvani, N.Gəncəvi, İ.Nəsimi, M.Füzulinin yaratdığı avtobioqrafizmlər onların yaradıcılığı ilə yanaşı, şəxsiyyətlərinin də öyrənilməsində əhəmiyyətli rol oynamışdır. XIX-XX yüzilliklərdə avtobioqrafik əsərlər daha çoxdur;

– Avtobioqrafik əsərlərə yaxın olan ədəbi nümunələr: sənədli bioqrafiya, memuar, avtobioqrafiya və gündəliklərin müqayisəsi göstərir ki, memuar, gündəlik və avtobioqrafiya əksər hallarda

müəllifin yaşadıqlarına, unuda bilmədiklərinə, yaxud çoxdan unutsa da, yazı prosesində xatırlanan yaşantılarına əsaslanır;

– Ədəbiyyatşünaslıqda avtobioqrafizm bədii əsərdə bioqrafik situasiyaların “sınması”, sınıb bədii mətnə “səpələnməsinə” əsaslanan xüsusi bədii fenomen kimi başa düşülür. Bədii mətndə bioqrafik faktın bilavasitə əksini istisna etsək, müəllifin özü-özünə refleksiyası, konkret bioqrafik situasiyanın doğurduğu emosiyaların əsərdə təsviri avtobioqrafik diskurs sferasına aiddir;

– Şübhəsiz ki, metodologiya baxımından avtobioqrafiya tarixidir. O, fərdin fəlsəfi tarixini təqdim edir. Avtobioqrafik mətn müəllifin mənəvi identifikasiyasını axtarır. İ.Muğannanın yaradıcılığında avtobioqrafizm məsələsinə bu rakursdan yanaşmaq lazımdır. Avtobioqrafik əsər üçün hadisələrin ədəbi-bədii təsvirindən çox, müəllifin həqiqi portretinin yaradılması əsasdır;

– Tədqiqatdan gəlinən qənaətlərdən biri də budur ki, yazıçı “İdeal” və onun təsirilə yazdığı əsərlərdə xalqın taleyi, soykökü, dili, milli şüurun inkişafı kimi məsələləri OdƏr dili və SafAğ elmi kontekstində işıqlandırır;

– Ədib “İsaHəq MusaHəq” romanında milli düşüncə və təfəkkürün formalaşmasına yad qüvvələrin təsirini avtobioqrafizmlər fonunda əks etdirir;

– “Qəbiristan” romanında nasir 90-cı illərin əvvəlində Azərbaycanda baş verən hadisələri avtobioqrafik cizgilərin müşayiəti ilə bədiiləşdirərək qaranlıq məqamlara aydınlıq gətirməyə çalışır;

– İ.Muğannanın hekayə və povestlərində yaratdığı avtobioqrafizmlər yaşadığı dövrün təsvirini verməklə bərabər, ailə üzvlərinin ona olan münasibətini də əks etdirir. “Anadil ötən yerdə” hekayəsi ədibin ilk qələm təcrübəsi olmaqla bərabər, avtobioqrafik obraz yaradıcılığının başlanğıcını qoyan əsər kimi qiymətləndirilməlidir;

– “Saz”, “Tütək səsi”, “Quru budaq”, “Faciə”, “Ömür karvanı” povestlərində yazıçının, atasının və babasının bioqrafik surətləri vasitəsilə mövcud rejimin mənfilikləri də tənqid olunur. Nuru, Zəlimxan və Heybət obrazları yazıçının xarakterinin və taleyinin daşıyıcısı olmaqla bərabər, dövrünün minlərlə insanının bədii surəti kimi çıxış edir. Müəllif “Saz” povestində İsfəndiyar

obrazını canlandırmaqla babası Omar ağanın və özünün taleyindən bəzi bioqrafik cizgiləri bədiiləşdirir. "Quru budaq" povestində Nuru, "Tütək səsi" povestində isə Tahir Tahirlinin bədii obrazında yazıçının atasının taleyindən müəyyən bioqrafik məqamlar əksini tapır;

– İ.Muğanna "İlan dərəsi" və ya "Peyğəmbərin taleyi" povestində babaları Omar ağa, Hüseyn ağa və Musa ağanın bioqrafik cizgilərini bədiiləşdirir. Folklor motivlərini özündə əks etdirən "Qırx kisə qızıl" povestində isə müəllif Zahid obrazının prototipi kimi çıxış edir. Bu povestlər İ.Muğannanın şəcərəsi ilə bağlı məlumatlar daşıdığından nasirin həyatını öyrənmək baxımından əhəmiyyətlidir;

– Aparılan tədqiqatlar bunu deməyə əsas verir ki, "Məhşər" romanında yaradılmış Nəsimi obrazını qismən İ.Muğannanın avtobioqrafik surəti kimi dəyərləndirmək olar. İ.Nəsiminin mürşidi F.Nəiminin övladlarına sahib çıxması epizodu İ.Muğannanın avtobioqrafiyasından məqam kimi dəyərləndirilə bilər;

– Ədib "İdeal" romanında yaratdığı Səməd obrazında öz avtoportretindən cizgilər verir. Mədəd Əmirli surətində isə atası Mustafa Hüseynovun taleyi canlandırılır;

– "Qəbiristan" romanında polis kapitanı Səmi (Səməd) obrazı da müəllif avtobioqrafiyasını əks etdirir. Ümumiyyətlə, yazıçı yaradıcılığının ikinci dövründə qələmə aldığı əsərlərinin, demək olar ki, hamısında müxtəlif situasiyalarda özünün və atasının bədii obrazlarını yaradır;

– Yazıçı "İsaHəq MusaHəq" romanında da Rəşid Fətullayev surəti ilə öz avtoportretini ərsəyə gətirir;

– "İdeal" romanında baş verən hadisələrin davamı kimi qələmə alınan "Cəhənnəm" romanında da İ.Muğannanın özünün və atasının obrazları canlandırılır.

**Dissertasiyanın əsas məzmunu və elmi-nəzəri müddəaları müəllifin respublika və xarici ölkələrdə dərc olunmuş elmi məqalələrində, konfrans materiallarında öz əksini tapmışdır:**


1. "Cəhənnəm" romanının obraz yaradılışında avtobioqrafizm çalarları // – Bakı: Dil və ədəbiyyat elmi-nəzəri jurnalı, – 2019. c. 1 (109), – s. 271–273.
2. İmadəddin Nəsimi düşüncəsinin və yaradıcılığının İsa Muğanna bioqrafiyasına təcəllası // Nəsiminin fəlsəfəsi və ümumbəşəri dəyərlər, – Bakı: Elm və təhsil, – 2019. – s. 451-458.
3. "İsaHəq, MusaHəq" romanında müəllif avtobioqrafiyasından fraqmentlər // – Gəncə: Gəncə Dövlət Universiteti elmi xəbərlər, – 2019. № 3 – s. 428-433.
4. Yazıçı taleyi və xarakterinin əks olunduğu povest // – Bakı: Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, – 2019. № 4, – s. 41-47.
5. İsa Muğannanın "GurÜn" romanında Qızıl Arslan obrazının avtobioqrafik məqamları və yazıçı təxəyyülü // – Bakı: Filologiya məsələləri – 2019. № 3, – s. 331-335.
6. Avtobioqrafik səciyyə daşıyan əsər ("Anadil ötən yerdə") // "Azərbaycan filologiyasının aktual problemləri" mövzusunda Respublika Elmi-Praktik konfransının materialları, – Bakı: – 15 may, – 2019, – s. 84-89.
7. İsa Muğananın "Məhşər" romanında Nəsimi obrazı təxəyyül və tarixilik kontektində // Doktorantların və gənc tədqiqatçıların XXIII respublika elmi konfransının materialları, c. 2. – Bakı: – 03-04 dekabr, – 2019, – s. 113-115.
8. Nəsimi düşüncələrinin ictimailəşməsində "Nəsimi" filminin və "Məhşər" romanının rolu // "Klassik Azərbaycan ədəbiyyatı: dil, üslub, problemləri" mövzusunda elmi konfransının materialları, – Bakı: – 06-07 dekabr, – 2019, – s. 222-226.
9. Artistic characters of the true lives in the story "Snake valley" // İnternational congress on social sciences proceeding book, – Budapest: – 23-25 September, – 2020, – p. 578-583.
10. Автобиографизм в Азербайджанской художественнойпрозе (На основе повестей Исы Муганны) // – Украiна: Вiсник

університету імені Альфреда нобеля, – 2020. № 2 (20), – с. 142-149.

**11.** İsa Muğannanın “Saz” və “Tütək səsi” povestlərində avtobioqrafik fraqmentlər // “Klassik Azərbaycan ədəbiyyatı və incəsənətinin milli özünütəsdiqdə və mərkəzi Asiyadakı mədəni tərəqqidə yeri” mövzusunda elmi konfransının materialları, – Bakı: – 23-25 dekabr, – 2020. – s. 152-154.

**12.** “Məhşər” romanına avtobioqrafik prizmadan baxış // – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri, – 2021. № 1, – s. 90-95.

**13.** İsa Muğanna fenomeninə fərqli münasibət // – Bakı: Əlyazmalar yanmır (elmi məqalələr toplusu), – 2021. № 2 (13), – s. 56-63.

**14.** İsa Muğanna və onun “Qəbiristan” romanında avtobioqrafizm cizgiləri // 4th international Nowruz conference on scientific research, Volume-III, – Karabagh: 18-21 March, – 2021, – s. 412-417.

**15.** İsa Muğannanın “Quru budaq” povesti avtobioqrafik örnəklər kontekstində // VI. Uluslararası Türk dili və ədəbiyyatı öğrenci kongresi, II cilt, – İstanbul: – 13-16 Haziran, – 2021, – s. 1469-1474.

**16.** İsa Muğannanın bədii nəsrində Nizami obrazı: Təxəyyül və tarixilik // International conference: The great Azerbaijani poet Nizami Ganjavi and eastern-Western literary-cultural heritage, – Baku: – 23-24 december, – 2021, – s. 125-127.

**17.** “Məhşər” romanında Nəsiminin bədii obrazı tarixi müstəvidə // “Azərbaycanşünaslığın aktual problemləri” mövzusunda XIII Beynəlxalq elmi-praktik konfransın materialları, – Bakı: – 4-5 may, – 2022, – s. 274-278.

**18.** İsa Muğannanın “Faciə” və “Ömür Karvanı” povestlərində dövrün təsviri müəllif portretindən elementlər fonunda // – Bakı: Gənc tədqiqatçı. Elmi-parktiki jurnal, – 2022. №1,VIII cild, – s. 215-220.

**19.** Reflection of autobliographical plates in Isa Muganna’s novel “Ideal” // – Corea: The journal of Eurasian Turkic Studies, – 2022. December, – p. 43-52.

**20.** "İdeal" romanında müəllif avtobioqrafiyasının təzahürü // Əhməd Cavadın 130 illiyinə həsr olunmuş "Azərbaycan filoloji fikri çağdaş tədqiqatlarda" mövzusunda Respublika elmi konfransının materialları, – Bakı: – 16 dekabr, – 2022, – s. 206-213.

**21.** "Həyatımdan səhifələr" ədəbi nümunəsinin janr özəlliyi (avtobioqrafiya və ya memuar) // – Bakı: Filologiya və sənətşünaslıq, – 2023. № 1, – s. 144-149.

**22.** "Kollu koxa" və "Şəppəli" povestlərində yazıçı mühitinin əksi avtobioqrafik cizgilər çərçivəsində // – Bakı: Əlyazmalar yanmır (elmi məqalələr toplusu), – 2023. № 1 (16), – s. 57-63.

**23.** Avtobioqrafiya, avtobioqrafik əsər və avtobioqrafizmin fərqi (İsa Muğannanın qələm təcrübələri əsasında) // – Bakı: Filologiya məsələləri, – 2023. № 10, – s. 232-240.

**24.** İsa Muğannanın yaradıcılıq bioqrafiyasında Heydər Əliyevin rolu // "Heydər Əliyev və milli-mənəvi irsimiz" mövzusunda Respublika elmi konfransının materialları, – Bakı: – 05 may, – 2023, – s. 69-72.

**25.** Biographical episodes in Isa Mughanna's novels "Gabristan" (Cemetery) and "IsaHag MusaHag" // – Vienna: The European Journal of Humanities and Social Sciences, – 2024. No 1, – p. 29-33.

**26.** İsa Muğannanın "Tütək səsi" və "Qırx kisə qızıl" povestlərində avtobioqrafizm hüdudlarında milli-mənəvi dəyərlər // Al Farabi 12th İnternational Scientific Research and İnnovation Congress, – Almaty: – 3-4 March, –2024. – p. 265-269.



28

Dissertasiyanın müdafiəsi ___24___ sentyabr 2024-cü il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri. İstiqlaliyyət küçəsi, 53. AZ 1001.
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.

Dissertasiya ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ___19___ avqust 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.08.2024
Kağız formatı: A5
Həcm: 38 996
Tiraj: 100